**COP29 könüllüləri İçərişəhərdə "Kiçik dostlarımız üçün təkrar istifadə" şüarı ilə ekoloji aksiya təşkil ediblər**

COP29 Azərbaycan Əməliyyat Şirkəti ətraf mühitin mühafizəsində kollektiv iştirakçılıq və məsuliyyətə çağırış olaraq "Kiçik dostlarımız üçün təkrar istifadə" şüarı altında ekoloji aksiya təşkil edib.

COP29 Azərbaycan Əməliyyat Şirkətinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbir "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun tərəfdaşlığı əsasında qədim tarixi və təbii gözəlliyi ilə seçilən İçərişəhərdə baş tutub.

Aksiya çərçivəsində COP29 könüllüləri əvvəlcədən toplanan tullantı materiallarından təkrar istifadə etməklə funksional quş yuvalarının hazırlanması üçün bir araya gəliblər. Praktiki fəaliyyətlə əhalinin marağına səbəb olan könüllülər aksiyaya qoşulan iştirakçılara müxtəlif növ tullantı materiallarından fərqli quş yuvalarının hazırlanması prosesini əyani nümayiş etdirib, tullantıların təkrar istifadəsi yolu ilə onların azaldılmasının faydası haqqında maraqlı faktlar bölüşüblər. Quş yuvaları daha sonra quş və kiçik heyvanların qida, su ehtiyaclarını təmin etməklə İçərişəhərdəki parkın ərazisində quraşdırılıb. Digər yuvaların isə Qala Qoruğunda quraşdırılması nəzərdə tutulur.

COP29 könüllülərinin nəzəri bilik və praktiki fəaliyyətlərini birləşdirərək reallaşdırdıqları bu təşəbbüs mühüm iqlim məsələlərindən biri olan tullantıların idarə edilməsi və ətraf mühit, flora və faunanın mühafizəsi arasında əlaqənin vurğulanmasına, tullantıların məsuliyyətli idarə edilməsi kimi ekoloji dayanıqlı vərdişlərin gündəlik həyatda tətbiqinə ictimai diqqətin cəlb edilməsi, eləcə də kollektiv səylərin əvəzsiz rolunun bir daha diqqətə çatdırılmasına xidmət edib.

**AZƏRTAC**
**2024, 18 iyul**